

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 241 (23.152)

16 dekabr 2018-ci il, bazar

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri İSESKO-nun Baş direktorunun və TÜRKSOY-un Baş katibinin müavinləri ilə görüşüb

Dekabrın 15-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktorunun müavini Amina Əl-Həcri və TÜRKSOY-un Baş katibinin müavini Fırat Purtaş ilə görüşmüşdür.

Ali Məclisin Sədri qonaqları salamlayaraq deyib ki, Naxçıvan İslam və Türk dünyasının mərkəzində yerləşir. "Qurani-Kərim"də adı çəkilən Əshabi-Kəhf Ziyarətgahı, eyni zamanda Nuh Peyğəmbərin məzarı Naxçıvandadır. Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilməsi, İslam Mədəniyyətinin Paytaxtı və TÜRKSOY-un tədbirlərinin birgə keçirilməsini yüksək dəyərləndirən Ali Məclisin Sədri demişdir ki, ötən dövrdə muxtar respublikada türk-islam abidələri bərpa olunmuşdur.



Ali Məclisin Sədri Naxçıvanda Türk Universitetinin yaradılması, eləcə də müxtəlif istiqamətlər üzrə əlaqələrin inkişafı sahəsində potensialın olduğunu bildirmişdir.





Amina Əl-Həcri İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktoru Əbdüləziz Osman əl-Tuveycrinin salamlarını Ali Məclisin Sədrinə çatdıraraq demişdir ki, İslam Mədəniyyətinin paytaxtları tədbirinin əsas məqsədi tarixi-mədəni abidələrə yeni baxış, onların bərpası və tanıdılmasıdır. Zəngin tarixi-mədəni irsə malik olan Naxçıvanda bu istiqamətdə mühüm işlər görülüb. Naxçıvan şəhərinin qədim tarixi ilə yanaşı, müasir inkişafı və təmizliyi də məmnunluq doğurur.

TÜRKSOY-un Baş katibi Düsen Kaseinovun salamlarını Ali Məclisin Sədrinə çatdıran Fırat Purtaş deyib ki, 2009-cu ildə Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə görüşünün Naxçıvanda keçirilməsi və əməkdaşlığın inkişafı sahəsində qəbul edilmiş qərarlar bu gün uğurla reallaşdırılır. Naxçıvan bu işə öz töhfəsini verir. Bu gün Naxçıvan şəhərində yüksək səviyyədə keçirilən "Türküstandan Anadoluya irfan məktəbinin alimləri"nin 2-ci konfransı da bu tədbirlərin davamıdır. Həmçinin Fırat Purtaş vurğulayıb ki, TÜRKSOY və İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı arasında 3 illik əməkdaşlıq protokolu imzalanıb. Naxçıvan TÜRKSOY və İSESKO arasında, o cümlədən İslam Mədəniyyəti paytaxtları ilə Türk dünyasının Mədəniyyət paytaxtları arasındakı əlaqələrin qurulması və inkişafı baxımından mərkəz rolunu oynayır.

Fırat Purtaş türkdilli ölkələr arasındakı əlaqələrin inkişafına verdiyi töhfələrə görə Ali Məclisin Sədrinə TÜRKSOY-un "25-ci il Xatirə Medalı"nı təqdim etmişdir.

Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayev "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018" tədbirlərinin dünyada və ölkəmizdə böyük maraqla qarşılandığını bildirmiş, yaradılan şəraiti və göstərilən dəstəyi yüksək dəyərləndirmiş, Ali Məclisin Sədrinə xatirə rəsmi hədiyyə etmişdir.

Ali Məclisin Sədri İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktoru Əbdüləziz Osman əl-Tuveycrinin və TÜRKSOY-un Baş katibi Düsen Kaseinovun salamlarına görə təşəkkürünü bildirmiş, onun da salamlarını İSESKO-nun Baş direktoru və TÜRKSOY-un Baş katibinə çatdırmağı xahiş etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018"in bağlanış tədbiri keçirilmişdir



Dekabrın 15-də Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018"in bağlanış tədbiri keçirilib.

İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktorunun müavini Amina Əl-Həcri, Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayev və Təşkilat Komitəsinin üzvləri ümummilli liderimiz Heydər Əliyevin abidəsini ziyarət edərək gül dəstələri qoymuş, ulu öndərin xatirəsinə ehtiramlarını bildirmiş, Heydər Əliyev Muzeyinə baxmışlar. Sonra ulu öndərin abidəsi önündə xatirə şəkli çəkdirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin sədri Vasif Talıbov, İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktorunun müavini Amina Əl-Həcri, Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayev və TÜRKSOY-un Baş katibinin müavini Fırat Purtaş "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018"in bağlanış tədbirində iştirak etmişlər.

Tədbir "Qurani-Kərim"in tilavəti ilə başlamışdır.

Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova çıxış edərək demişdir ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin milli-mənəvi dəyərlərimizə, bütövlükdə mədəniyyətimizə göstərdiyi qayğı və müəyyənləşdirdiyi siyasi xətt bu gün Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında uğurla davam etdirilir. Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunması bir tərəfdən bu qədim türk yurdunun zəngin tarixi-mədəni irsi ilə bağlıdırsa, digər tərəfdən də müasir dövrdə bu dəyərlərin qorunub yaşadılması sahəsində görülən işlərin nəticəsidir.

Qeyd olunmuşdur ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Naxçıvan şəhərinin 2018-ci ildə İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında" 2016-cı il 2 iyun tarixli Sərəncamına əsasən 2017-ci il noyabrın 25-də və 2018-ci il iyunun 7-də Təşkilat Komitəsinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə iclaslar keçirilmiş, hazırlıq işləri ilə bağlı məsələlər müzakirə olunmuş və qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 23 yanvar tarixli Sərəncamına əsasən "İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan – 2018" loqotipi hazırlanmış və nümayiş olunmuşdur. Həmçinin üzərində loqotip əks olunmuş 100 min zərf, 100 min poçt markası, markalardan ibarət 200 buklet, 500 döş nişanı və suvenirlər, "İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan – 2018"in rəsmi internet səhifəsi hazırlanmışdır. Naxçıvanın müasir görüntülərini, təbiətini, tarix-mədəniyyət abidələrini əks etdirən fotoşəkillər seçilərək aidiyyəti üzrə təqdim edilmiş və İSESKO-nun saytına yerləşdirilmişdir. Tədbirlər Planına əsasən Naxçıvandakı türk-islam mədəniyyəti abidələrindən Möminə xatın, Yusif Küseyir oğlu, Gülüstan türbələrinin və Qarabağlar Türbə Kompleksinin İSESKO-nun siyahısına daxil edilməsi ilə bağlı müvafiq sənədlər hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir.

2017-ci il iyulun 7-də "Naxçıvanın türk-islam mədəniyyəti abidələri: tarixdə və günümüzdə" beynəlxalq konfrans, dekabrın 6-da "Ümummilli lider Heydər Əliyev dini həmrəyliyin yaradıcısıdır" mövzusunda konfrans keçirilmişdir. "İslamda müdrik kəlamlar", "Naxçıvan: türk-islam mədəniyyəti abidələri", "Naxçıvan buzxanaları", "Naxçıvan hamamları", "Naxçıvan türbələri" kitabları, "Naxçıvan türk-islam mədəniyyəti abidələri: tarixdə və günümüzdə" mövzusunda keçirilmiş beynəlxalq konfransın

Ardı 2-ci səhifədə

materialları, eləcə də məşhur naxçıvanlı mütəfəkkir Nemətullah Naxçıvaninin “Qurani-Kərim”in təfsirinə həsr olunmuş çoxcildliliyinin birinci cildi tərcümə edilərək nəşr olunmuşdur. Ötən müddətdə “Naxçıvan: türk-islam mədəniyyəti abidələri”, “İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan” televiziya filmləri, “Naxçıvan-2018. İslam mədəniyyəti” videoçarxı hazırlanmışdır. 2018-ci il fevralın 21-də ümumtəhsil məktəblərinin şagirdləri üçün Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı kimi” mövzusunda interaktiv dərs keçirilmişdir. 2018-ci ildə Şərur rayonunun Yengicə kəndindəki Şərq hamamında, Nehrəm imamzadəsində, Naxçıvan şəhər imamzadəsində və Kəngərli rayonundakı Qarabağlar Türbə Kompleksində əsaslı bərpa işləri aparılmışdır.



2018-ci il iyun ayının 20-də “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018”in açılışı olmuşdur. Açılış tədbirindən sonra muxtar respublikada bir sıra tədbirlər, o cümlədən dünya şöhrətli ebru sənətçisi, Türkiyə Böyük Millət Məclisinin sənət üzrə müşaviri Hikmət Barutcugilin əsərlərindən ibarət “Allahın gözəl adları” mövzusunda sərgi, dünya şöhrətli İran rəssamı və miniatür ustadı Mahmud Farçiyanın sənət sərgisi, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun “Dədə Qorqud” Kamera Orkestrinin konserti, “İslam filmləri həftəsi”, “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı” mövzusunda beynəlxalq konfrans, bu gün isə TÜRKSOY-un təşkilatçılığı ilə “Türk-islam əxlaq fəlsəfəsinin qurucu memarları: Türküstandan Anadoluya irfan məktəbinin alimləri” adlı beynəlxalq konfrans keçirilmişdir. “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018” tədbirləri çox mühüm ictimai-mədəni hadisə kimi qədim diyarımızın tarixində əbədi qalacaqdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***“Azərbaycan müstəqillik qazandıqdan sonra Naxçıvan Muxtar Respublikasında İslam dəyərlərinə yeni yanaşmanın – elmi baxışın əsası qoyulmuş, türk-islam mədəniyyəti abidələri tədqiq olunmuş, Naxçıvan İslam mədəniyyətinin əsas inkişaf mərkəzi kimi bir daha öz təsdiqini tapmışdır”.***



İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktorunun müavini Amina Əl-Həcri “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018”in bağlanış tədbirində iştirakından məmnunluğunu bildirmiş, İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktoru Əbdüləziz Osman əl-Tuveycrinin minnətdarlığını Ali Məclisin Sədrinə çatdırmışdır. Qeyd olunmuşdur ki, 5 minillik tarixə malik olan Naxçıvan Qafqazın ən qədim şəhərlərindən və mədəniyyət mərkəzlərindən biridir. İslam dünyasında mühüm coğrafi və strateji mövqeyə malik olan Naxçıvan şəhəri İslam alimləri tərəfindən yüksək qiymətləndirilmişdir. Həmçinin Naxçıvan Şərq və Qərb, Avropa və Asiya arasındakı tarixi ticarət yollarının, mədəniyyət və təhsil əlaqələrinin kəsişməsində yerləşir. Tarix boyu Azərbaycan xalqının mühüm tarixi-mədəni irsinin yaşadıldığı Naxçıvan mədəniyyət və sivilizasiyalar arasında təmas vasitəsi olub və mühüm körpü funksiyasını yerinə yetirib. Özünün fərqli təbii, iqtisadi və mədəni potensialı olan qədim Azərbaycan şəhəri Naxçıvan öz zəngin maddi və qeyri-maddi mədəni irsini keçmişin təcrübəsindən faydalanaraq qoruyur və gələcəyə çatdırır.



Amina Əl-Həcri Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi ilə bağlı keçirilən tədbirlərdən danışaraq bildirmişdir ki, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunması ilə bağlı İslam Elm, Təhsil və Mədəniyyət Təşkilatı tərəfindən VII Beynəlxalq Klassik Musiqi Festivalı, İSESKO-nun Yaşıl Şəhər Strategiyasının həyata keçirilməsi ilə bağlı Azərbaycan, Qazaxıstan, Özbəkistan, Tacikistan, Türkiyə və Misirdən olan ekspertlərin iştirakı ilə regional toplantı, mədəni sənaye sahələrində investisiyaların əhəmiyyəti və gənclər arasında işsizliyin azaldılmasında onun rolu mövzusunda milli seminar, ekstremizm və islamafobiyaya qarşı mübarizə mexanizmi kimi vasitəçilik və dialoq mədəniyyəti üzrə milli seminar və digər tədbirlər keçirilmişdir.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının mədəniyyət naziri, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsi sədrinin müavini Əbülfəs Qarayev demişdir: Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Naxçıvan şəhərinin 2018-ci ildə İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında” 2016-cı il 2 iyun tarixli Sərəncamı dövlət başçısının bu tarixi hadisəyə verdiyi böyük önəmin və Azərbaycanın bu qədim diyarındakı zəngin mədəni-mənəvi irsə yüksək qiymətinin təzahürüdür. Təşkilat Komitəsi tərəfindən ötən dövrdə mühüm tədbirlər həyata keçirilmişdir. Naxçıvan qədim tarixi və zəngin mədəniyyəti, müasir iqtisadi imkanları və inkişafı ilə İslam Mədəniyyətinin Paytaxtı statusunu layaqətlə dünyaya nümayiş etdirdi. Həmçinin 2018-ci ilin 26 noyabr-1 dekabr tarixlərində Mavriki Respublikasının paytaxtı Port Luis şəhərində UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin növbəti 13-cü sessiyasında qəbul edilən qərarla “Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri” UNESCO-nun Təcili Qorunma Siyahısına daxil edilmişdir. Məqsəd ölkəmizin qədim və tarixi ərazisi olan Naxçıvanda yaşayan əhalinin ənənəvi mədəniyyətinə və xalq yaradıcılığına dünya miqyasında işıq salmaq və tanıtmaq, eyni zamanda bu ənənələri UNESCO səviyyəsində qorumaqdan ibarətdir. Bununla da Şərur, ələlxüsus “Köçəri” yallısını öz adına çıxmağa çalışan Ermənistanın “Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri” nominasiyasına qarşı təxribat xarakterli cəhdlərinin qarşısı alınmış, növbəti dəfə bu ölkəyə layiqli cavab verilmişdir. Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı olması bir illə məhdudlaşmır. Naxçıvan İslam sivilizasiyanın tarixi-mədəni mərkəzlərindən biri olmuşdur və bundan sonra da bu adı əbədi qoruyub saxlayacaqdır.



Sonra “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018”in bağlanışı münasibətilə konsert olmuşdur. Azərbaycan Respublikasının Xalq artisti Alim Qasımov və Əməkdar artist Fərqanə Qasımova xalq mahnıları və muğamlarımızı məharətlə və böyük ustalıqla ifa etmişlər. “Şərur” Xalq Yallı Ansamblının ifasında təqdim olunan “Köçəri” və “Tənzərə” yallıları da alqışlarla qarşılanmışdır.

Konsertdən sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov, İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktorunun müavini Amina Əl-Həcri, Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayev və TÜRKSOY-un Baş katibinin müavini Fırat Purtaş səhnə arxasına keçərək ifaçılarla görüşmüşlər.

Ali Məclisin Sədri uğurlu konsert münasibətilə təbriklərini çatdıraraq demişdir: Bugünkü konsertdə Alim Qasımov ilahi eşqlə və şövqlə oxudu. Bəlkə də qarşıdakı illərdə sizin daha gözəl konsertləriniz olacaq, amma bu konsert yaradıcılığınızın zirvəsi oldu. İmprovizələr, uzlaşmalar gözəl alındı və konsert naxçıvanlıların yaddaşında silinməz iz qoydu. “Şərur” Xalq Yallı Ansamblı da yallılarımızı məharətlə ifa etdi. “Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri” UNESCO-nun Təcili Qorunma Siyahısına daxil edilmişdir. Yallı bizim qədim irsimizdir. Ona görə də vaxtilə muxtar respublikada yallı sənətinin UNESCO səviyyəsində qorunması ilə bağlı tədbirlər həyata keçirilmiş, tədqiqatlar aparılmış, “Şərur” Xalq Yallı Ansamblının fəaliyyəti və Naxçıvanda yallı sənəti ilə bağlı məlumatlar hazırlanıb aidiyyəti üzrə təqdim olunmuşdur.



Ali Məclisin Sədri ifaçılara yeni yaradıcılıq uğurları arzulamışdır.

İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktorunun müavini Amina Əl-Həcri demişdir: İfa olunan mahnılar, muğamlar və yallılar Azərbaycan xalqının özünəməxsusluğunu, tarixini və zəngin mədəni irsə malik olduğunu göstərir. Bunlar

*Ardı 3-cü səhifədə*

sadəcə musiqi və rəqs deyil, həm də bir xalqın qədim tarixinin yaşadılmasıdır.

Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayev demişdir: Bugünkü konsertdə təqdim olunan bütün yaradıcılıq nümunələri UNESCO-nun siyahısına daxil edilib. Muğam ifaçılığı, tar, kamança və yallı bir daha təsdiq etdi ki, Azərbaycan xalqının yaratdığı incəsənət nümunələri bütün bəşəriyyətə məxsusdur. Bütün bunların bir arada "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018"in bağlanış tədbirində ifa olunması isə mühüm əhəmiyyətə malikdir. Çünki Naxçıvanda tarixin və mədəni irsin qorunub saxlanılması və təbliği sahəsində kompleks işlər görülür.

Azərbaycan Respublikasının Xalq artisti Alim Qasımov göstərilən diqqətə və yaradıcılıqlarına verilən yüksək qiymətə görə Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Sonra ifaçılarla və "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018"in bağlanış tədbirinin iştirakçıları ilə xatirə şəkilləri çəkdirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



## "Türk-islam əxlaq fəlsəfəsinin qurucu memarları: Türküstandan Anadoluya irfan məktəbinin alimləri"nin 2-ci beynəlxalq konfransı keçirilib

***Dekabrın 15-də "Naxçıvan" Universitetində "Türk-islam əxlaq fəlsəfəsinin qurucu memarları: Türküstandan Anadoluya irfan məktəbinin alimləri"nin 2-ci beynəlxalq konfransı keçirilib.***






Konfransda TÜRKSOY-un Baş katibinin müavini Fırat Purtaş "TÜRKSOY – Uluslararası Türk Kültür Təşkilatı 25-ci ilində" mövzusunda açılış nitqi edib. Bildirib ki, bu il yaranmasının 25 ili tamam olan təşkilat ötən dövrdə türk-islam əxlaq fəlsəfəsinin tədqiqində, təbliğində qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsinə çalışıb. TÜRKSOY – Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının I konfransı 2017-ci ildə Türkiyə Cümhuriyyətinin paytaxtı Ankara şəhərində keçirilib. II konfransın TÜRKSOY-un yaradılmasının 25-ci ildönümündə Azərbaycanın Naxçıvan Muxtar Respublikasında keçirilməsi təsadüfi deyil. İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin VI konfransında Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilməsi, ümumilikdə, Türk dünyası üçün böyük şərəf və qürurdur. Vurğulanmalıdır ki, İslam mədəniyyətlərinin paytaxtları seçilərkən bir sıra vacib məqamlar diqqətdə saxlanılır, konkret meyarlar əsas götürülür. Belə ki, seçilən paytaxt zəngin tarixə sahib olmalı, mədəni baxımdan, eyni zamanda İslam mədəniyyətinə, bəşəri dəyərlərə, töhfə verməlidir. Tələb olunan amillərin də Naxçıvanda mövcudluğu bu qədim diyarın İslam Mədəniyyətinin Paytaxtı seçilməsində əsas olub.

TÜRKSOY adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirən Fırat Purtaş konfransa öz işində müvəffəqiyyət arzulayıb.

Konfransda AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev "Naxçıvan – Türk coğrafiyası və mədəniyyətinin mərkəzi kimi" mövzusunda məruzə edib. Qeyd edilib ki, qədim və zəngin tarixə, mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan diyarı əzəli türk-oğuz yurdu, Azərbaycan torpağı, bəşər sivilizasiyasının beşiklərindən biridir. Naxçıvan həm də Yaxın Şərqin ən qədim mədəniyyət mərkəzlərindəndir. Naxçıvan ərazisində aparılan arxeoloji tədqiqatlar, 5 min il bundan əvvəl ilkin şəhər mədəniyyətinin formalaşması, şəhərsalma ənənələrinin indiyədək qalan izləri sübut edir ki, bu torpaq bəşəriyyətin inkişafında mühüm rol oynayıb. Burada insanlar 500-300 min il bundan əvvəl yaşayıblar.

Naxçıvan Azərbaycanın dövlətçilik tarixinə mühüm töhfələr verib, – deyən akademik diqqətə çatdırıb ki, Azərbaycan türkləri min illər boyu burada ardıcıl həyat sürüb, böyük dövlətçilik ənənələrinin əsasını qoyublar. Bu qədim diyarda X-XI əsrlərdə "Naxçıvan şahlığı", XII-XIII əsrlərdə Azərbaycan Atabəylər dövləti, XVIII-XIX əsrlərdə "Naxçıvan xanlığı", XX əsrin əvvəlində Araz-Türk Respublikası fəaliyyət göstərib. Naxçıvan diyarı "Türk yurdu", "Şərqin qapısı"dır, türk dövlətləri ilə Türkiyə Cümhuriyyətini əlaqələndirən körpüdür. 1921-ci ildə Naxçıvan muxtariyyət statusu əldə edib, 1924-cü ildə isə Naxçıvan Muxtar Respublikası yaradılıb. Naxçıvan Muxtar Respublikası müqəddəs bir məkandır. Burada Nuh Peyğəmbərin məzarı və məzarüstü türbəsi, adı "Qurani-Kərim"də çəkilən "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi yerləşir. Bu diyarda 1218 dünya, ölkə və yerli əhəmiyyətli tarix və mədəniyyət abidəsi qeydə alınaraq pasportlaşdırılıb.

Qeyd olunub ki, Türkdilli ölkələrin dövlət başçılarının IX Zirvə görüşünün Naxçıvanda keçirilməsi təsadüfi deyildir. Bu zirvə görüşü ilə türkdilli ölkələrin birliyi yeni mərhələyə qədəm qoydu. Naxçıvanda keçirilən bu mötəbər və möhtəşəm tədbirlər silsiləsi Türk dünyasının birliyi, həmrəyliyi, bu günü və gələcəyi baxımından çox mühüm töhfələrlə yadda qaldı. Qədim sivilizasiyanın məkanı olan, bütün sahələrdə inkişaf edərək Türk dünyasının elm, mədəniyyət və maarifçilik mərkəzinə çevrilən Naxçıvan bu günlərdə daha bir ilkə imza atdı, Naxçıvan şəhərində Türk Şurası Gənc Liderlərinin ilk forumu keçirildi.

Tarixi mənbələrdə Naxçıvan şəhəri "Yer üzərində bundan daha çox əhalisi olan şəhər yoxdur", "Təbriz və Bağdaddan sonra Naxçıvan kimi cəlallı və əzəmətli şəhər yoxdur", "Şəhərdə çoxlu saray, köşk və eyvan vardır... Köşklərin çoxu qəsrlər kimi üç-dörd mərtəbəlidir" və sair bu kimi ifadələrlə, "Nəqşi-cahan" ("Dünyanın bəzəyi") epiteti ilə tərənnüm edilib, "Naxçıvan İslamın ən güclü dayaqlarından biri" adlandırılıb. Naxçıvan Eneolit, Kür-Araz və Boyalı qablar mədəniyyətinin mərkəzi olub. Naxçıvanın malik olduğu zəngin tarixi-mədəni irsin və burada islami dəyərlərin yaşadılması sahəsində görülən işlər, Naxçıvan şəhərinin müasir inkişafı, bu şəhərin İslam Mədəniyyətinin Paytaxtı olmağa tam haqq verib. Bəşər mədəniyyətində İslam sivilizasiyasının xüsusi yeri olub. Ümumiyyətlə, İslamın geniş yayılmasını təkcə dini etiqad baxımından izah etmək düzgün olmazdı. İslamın yayılması həm də mədəni ənənə və elmlə bağlıdır. Bütün bunlar göstərir ki, İslamda elmə, maarifə böyük əhəmiyyət verilir. Bu dinin ən gözəl göstəricilərindən biri də kitab mədəniyyətidir. Heç bir din haqqında bu qədər kitab yazılmayıb. Naxçıvanlı alimlərin bu sahədəki fəaliyyətləri diqqətəlayiqdir. Onlar İslam hüququ və "Qurani-Kərim"in təfsiri haqqında çoxsaylı əsərlər yazıblar. Bütün bunlar qətiyyətlə deməyə əsas verir ki, Naxçıvanın adı İslam Mədəniyyətinin Paytaxtı kimi əbədi qalacaqdır.

"Türk dünyası ədəbiyyatında Çingiz Aytmatov imzası" mövzusunda çıxış edən TÜRKSOY-un Qırğızıstan təmsilçisi, Xalq şairi Kojogeldi Kuluyev nəinki türkdilli dövlətlərdə, dünyanın bütün ölkələrində tanınan yazıçı Çingiz Aytmatovun Türk dünyasında sevilən əsərləri, onların ideya istiqamətləri, türk xalqları arasında əlaqələrin gücləndirilməsində rolu, dünya şöhrətli yazıçının Azərbaycanın sənət, mədəniyyət, ədəbiyyat xadimləri ilə əlaqələri barədə danışıb. Təmsilçisi olduğu təşkilat tərəfindən 2018-ci ilin Qırğızıstanda "Çingiz Aytmatov ili" elan olunması bu böyük yazıçıya Türk dünyasının verdiyi böyük qiymət kimi dəyərləndirilib.

TÜRKSOY-un Qazaxıstan təmsilçisi, doktor Askar Turganbayevin, "Doğumunun 125-ci ilində Mağcan Cumabay və qazax ədəbiyyatı" mövzusunda çıxışı da konfrans iştirakçıları tərəfindən maraqla qarşılanıb. Məruzəçi Mağcan Cumabayın keşməkeşli həyatı, mənalı fəaliyyəti və zəngin yaradıcılığı barədə danışıb.

Bakı Dövlət Universitetinin kafedra müdiri, professor Anar İsgəndərov "Naxçıvan – Türk və İslam dünyasına açılan qapı" mövzusundakı çıxışına ümummilli liderimiz Heydər Əliyevin qədim diyar haqqındakı fikirləri ilə başlayıb: ***"Naxçıvan Azərbaycan xalqının qədim tarixini əks etdirən müqəddəs bir torpaqdır. Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır".*** Bunu qədim Naxçıvana gələn hər bir kəs görür, Naxçıvanda türk-islam mədəniyyətinin böyük ehtiramla yaşadıldığını təsdiq edir. Ona görə də bu konfransın Naxçıvanda keçirilməsi böyük əhəmiyyət daşıyır.

Ankara Yıldırım Bəyazit Universiteti, doktor Oğuzxan Aydının "Əhmət Yasəvidən Yunus Əmrəyə Türk dünyasının irfan ədəbiyyatı" mövzusunda çıxışında Türk dünyasının irfan ədəbiyyatında böyük rolu olan Əhməd Yasəvi, Yunus Əmrə, Mövlanə Cəlaləddin Rumi, Baba Nemətullah Naxçıvani və başqalarının fəaliyyəti barədə ətraflı məlumat verilib.

"19-cu yüz il – 20-ci yüz ilin əvvəlində Azərbaycanda din adamlarının maariflənmə hərəkatının yeri və rolu" mövzusunda çıxış edən Ankara Hacəttəpə Universitetinin doktorantı Cavid Mövsümlü bəhs olunan dövrdə rus şovinizminin İslam dünyasına münasibəti, din xadimlərinin maariflənməsi yolunda həyata keçirilən tədbirlərdən danışıb.

Sonra TÜRKSOY – Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı tərəfindən "Naxçıvan" Universitetində keçirilən konfransa yüksək səviyyədə ev sahibliyi etdiyi üçün ali təhsil ocağına hədiyyə təqdim olunub və xatirə şəkli çəkdirilib.

**"Şərq qapısı"**

## Amina Əl-Həcri: Naxçıvan eyni zamanda Avropa ilə müsəlman Şərqi arasında etibarlı bir körpüdür



Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018"in bağlanış tədbirinin Bakı şəhərindən və xarici ölkələrdən gələn iştirakçıları dünən "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi, Naxçıvan Dövlət Xalça Muzeyi və Bəhruz Kəngərli Muzeyi ilə tanış olublar.

İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktorunun müavini Amina Əl-Həcrinin səfər təəssüratlarını öyrəndik:

– Naxçıvan keçmişdə və müasir dövrdə İslam mədəniyyətinə verdiyi töhfələrə görə çox haqlı olaraq 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilib. Sivilizasiyalararası dialoqda, keçmişlə bu gün arasında mövcud olan ənənələrin bölüşülməsində və islami dəyərlərin gənc nəslə ötürülməsində bu, çox mühüm hadisədir. Naxçıvanın İSESKO-nun İslam Mədəniyyəti Paytaxtı layihəsinə çox mühüm töhfəsi vardır. Naxçıvanda qorunub saxlanılan miras, inkişaf etmiş mədəniyyət, mövcud olan tarixi abidələr bu baxımdan yüksək qiymətləndirilir. Naxçıvan, eyni zamanda Avropa ilə müsəlman Şərqi arasında etibarlı bir körpüdür. Bu da Naxçıvan şəhərini nümunə kimi qiymətləndirməyə əsas verir.

Bu layihə çərçivəsində həyata keçirilən tədbirlərə gəldikdə, onu qeyd edə bilərəm ki, il ərzində görülmüş bütün işlər Naxçıvanın beynəlxalq nüfuzunu artıran amillərdəndir. İSESKO Naxçıvan Muxtar Respublikasında, ümumilikdə, Azərbaycan Respublikasında görülmüş bu işləri yüksək qiymətləndirir. Burada keçirilmiş silsilə mədəni tədbirlər, konfranslar Naxçıvan kimi gözəl bir şəhəri görmək, qorunub saxlanılan mədəniyyətlə, insanlarla yaxından tanış olmaq üçün çox gözəl işlərdəndir.

Onu deyə bilərəm ki, bu, mənim Naxçıvana ilk səfərim olsa da, çox dərin təəssürat aldım. Sakit, təmiz bir şəhərdə, mehriban insanların əhatəsində olmaqdan xoşbəxtəm. Elə düşünürəm ki, Naxçıvan təkcə İslam aləminin deyil, bütün dünyanın ən işıqlı şəhəridir. Bu işıq hər yerdə, hətta insanların təbəssümündə də hiss olunur. Səfərimdən geri qayıtdığımda gözəl ölkəniz, şəhəriniz haqqında dostlarıma və həmkarlarıma danışacaq çox təəssüratlarım vardır.

**Əli CABBAROV**

# Konfrans iştirakçıları muxtar respublikanın tarixi abidələri, mədəniyyət və səhiyyə müəssisələri ilə tanış olublar

*Dünən "Naxçıvan" Universitetində keçirilən "Türk-islam əxlaq fəlsəfəsinin qurucu memarları: Türküstandan Anadoluya irfan məktəbinin alimləri"nin 2-ci beynəlxalq konfransının iştirakçıları muxtar respublikanın tarixi abidələri, mədəniyyət və səhiyyə müəssisələri ilə tanış olublar.*

Duzdağ Fizioterapiya Mərkəzi ilə tanışlıq zamanı bildirilib ki, 1979-cu ildə qədim duz mədənlərinin bazasında yaradılan mərkəzdə hazırda bronxial-astma və ağciyər-bronx sisteminin digər qeyri-spesifik xəstəliklərindən əziyyət çəkən insanlar müalicə olunurlar. Burada duz layları arasında oksigen havanın 20 faizini təşkil edir ki, bu da ağciyər xəstəliklərindən əziyyət çəkənlərə təbiətin bəxş etdiyi ən gözəl dərmandır. Burada havanın temperaturu sabitdir – 18-20 dərəcə, nisbi rütubət 24-50 faiz arasında dəyişir. Duzun tərkibindəki zəngin minerallar və kimyəvi elementlər də orqanizmə müsbət təsir göstərir.

Qeyd olunub ki, vaxtilə mərkəzdə müalicə almaq üçün kifayət qədər lazımi şərait yox idi. Ancaq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun böyük diqqəti və qayğısı sayəsində 2008-ci ildən mərkəzdə pasiyentlər, tibbi və digər personal üçün hərtərəfli müasir şərait yaradılıb və bura ağciyər xəstəliklərindən əziyyət çəkənlərin ümid yerinə çevrilib. Təsadüfi deyil ki, son illər Duzdağ Fizioterapiya Mərkəzi hər il orta hesabla 3500-4000 arasında xəstə qəbul edir. Belə ki, ölkəmizlə yanaşı, Türkiyə, Gürcüstan, Ukrayna, İran, Rusiya, Tacikistan, Qazaxıstan, Özbəkistan, Almaniya, Hollandiya, Avstriya, İngiltərə, Fransa kimi bir sıra xarici ölkələrdən də gələn insanlar yuxarı tənəffüs yolları xəstəliklərinin müalicəsi üçün əlverişli imkan tapırlar.

Qonaqlar "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi ilə də tanış olublar. Xan sarayında konfrans iştirakçılarına məlumat verilib ki, bu qədim mədəniyyət incisi Azərbaycanın milli dövlətçilik tarixində Naxçıvan xanlığının tutduğu xüsusi mövqeyi nəzərə alınaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2010-cu il 23 oktyabr tarixli Sərəncamı ilə "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyi kimi fəaliyyətə başlayıb.

Diqqətə çatdırılıb ki, bu iqamətgah Kalbalı xan Kəngərli tərəfindən 1760-cı illərdə tikdirilib. Şərq memarlığı üslubunda inşa edilmiş abidə XVIII əsrin ortalarından XX əsrin əvvəllərinədək Naxçıvan xanlarının yaşayış evi olmaqla yanaşı, həm də xanlıq dövründə dövlətin siyasi iqamətgahı funksiyasını yerinə yetirib. Naxçıvan-Marağa memarlıq məktəbinə aid olan bu saray üç mərtəbədən ibarətdir və hazırda muzey kimi fəaliyyət göstərir. Muzeyin 9 ekspozisiya zalı var. Burada 2000-ə yaxın eksponat yerləşdirilib ki, onlardan 236-sı muzeydə nümayiş etdirilir.

Milli memarlığımızın möhtəşəm abidəsi, Şərq memarlığı incilərindən olan Möminə xatın türbəsi ilə tanışlıq zamanı diqqətə çatdırılıb ki, bu abidə 1186-cı ildə tikilib. Həmin dövrdə Azərbaycan Atabəylər dövlətinin banisi Şəmsəddin Eldəniz həyat yoldaşı Möminə xatının məzarı üzərində məqbərə yaradılmasına qərar verib və bundan sonra məqbərə tanınmış memar Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən tikilib. Türbə yeraltı, yəni sərdabə və yerüstü hissələrdən ibarətdir.

Açıq səma altında nümayiş etdirilən daş abidələr haqqında da qonaqlara ətraflı məlumat verilib. Bildirilib ki, Açıq Səma Altında Muzey Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2002-ci il 11 iyun tarixli Sərəncamına əsasən Naxçıvan şəhərindəki Əcəmi seyrəngahında yaradılıb. Muzeyin yaradılmasında əsas məqsəd xalqımızın mifoloji və dini baxışlarını özündə əks etdirən maddi-mədəniyyət nümunələrinin mühafizəsi, öyrənilməsi və təbliğ edilməsidir. 80 eksponatla fəaliyyətə başlayan mədəniyyət müəssisəsində hazırda 400-dən çox eksponat sərgilənir. Burada mifoloji və dini dünyagörüşlə əlaqədar olan 226 qoç heykəli, daş kitabə, qəbirüstü abidə, sütun altlıqları, müxtəlif daş fiqurlar, qəbirüstü sənduqələr, daşla bağlı məişət əşyaları qorunub nümayiş etdirilir.

Təkcə Naxçıvanın deyil, ümumilikdə, Cənubi Qafqazın və Yaxın Şərqin ən qədim qalalarından biri olan Naxçıvanqala da qonaqların diqqətini cəlb edib. Bildirilib ki, bu tarixi abidə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması haqqında" 2013-cü il 5 iyun tarixli Sərəncamına əsasən bərpa edilib. Bu sərəncam təkcə tariximizin qorunması və təbliğinə deyil, həm də gələcəkdə bir millət kimi bu torpaqların əzəli və əbədi sakinləri olduğumuzun elmi dəlillərlə sübutuna xidmət edən mühüm dövlət sənədidir. Naxçıvanqalanın bərpası, qalanın əvvəlki görkəminin özünə qaytarılması, burada kompleksin yaradılması, ümumilikdə, Türk dünyasının tarixinin öyrənilməsi, tədqiqi və təbliği baxımından mühüm və tarixi addımdır. Tanışlıq zamanı burada nümayiş olunan eksponatlar haqqında qonaqlara ətraflı məlumat verilib.

Konfrans iştirakçıları Nuh Peyğəmbərin məzarüstü türbəsini də ziyarət ediblər. Burada qeyd olunub ki, qədim yunan





alimi Klavdi Ptolomey bizim eranın II əsrində ilk dəfə olaraq Naxçıvanı Nuh Peyğəmbərin məskəni, XI əsrin görkəmli ərəb alimi, coğrafiyaşünas əl-Şərifi isə nəinki Nuh Peyğəmbərin qəbrinin, hətta gəmisinin də qalıqlarının Naxçıvanda olması barədə ətraflı məlumat verib. 1919-1920-ci illərdə məşhur realist rəssam Bəhruz Kəngərli Nuh Peyğəmbərin Naxçıvandakı türbəsinin rəsmini altı formada naturadan kətan üzərinə köçürüb.

Diqqətə çatdırılıb ki, tarixi ədəbiyyatda bu abidənin qədim dövrdə mövcud olduğu, VIII əsrdə bərpa edilməsi ilə bağlı məlumatlar da maraq doğurur. Araşdırmalar zamanı məlum olub ki, abidə XII əsrdə də müsəlman-səlcuq memarlıq üslubunda yenidən tikilib. Təbii aşınmalar nəticəsində tikili yenidən dağılıb. Qazıntılar zamanı yalnız abidənin bünövrəsi aşkara çıxarılıb. Tarixdən silinmək üzrə olan türbə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı ildə imzaladığı "Nuh Peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü abidəsinin bərpa edilməsi haqqında" Sərəncama əsasən mükəmməl şəkildə bərpa edilib.

Qeyd edək ki, konfrans iştirakçıları bu gün "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi və Qarabağlar Türbə Kompleksi ilə də tanış olacaqlar.

*Konfrans iştirakçılarının səfər təəssüratlarını oxucularımıza təqdim edirik.*

***Fırat Purtaş – TÜRKSOY-un Baş katibinin müavini, professor, doktor:*** – Əvvəlcə onu qeyd edim ki, türk xalqları arasında ədəbi-mədəni əlaqələrin qurulmasında müasir Azərbaycan dövlətinin qurucusu, dahi şəxsiyyət Heydər Əliyevin böyük rolu olub. O, həmişə türk xalqları ədəbiyyatlarının dününə, bu gününə, qarşılıqlı əlaqələrinə, Türk dünyasının məşhur yazarlarının yaradıcılığına, bir sözlə, türk xalqlarının söz sənətinə böyük diqqət yetirib.



Bu gün Türk dünyasının UNESCO-su və türkdilli ölkələrin mədəniyyət səylərini birləşdirən beynəlxalq təşkilat olaraq dahi rəhbərin doğulub boya-başa çatdığı, doğma və bir o qədər də əziz olan Naxçıvanda olmaqdan ayrı bir qürur və sevinc hissi duyuruq.

Bu il yaradılmasının 25-ci ili tamam olan TÜRKSOY (Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı) İslam Mədəniyyətinin Paytaxtı Naxçıvanda və bu əhəmiyyətli tədbirin keçirildiyi ali təhsil ocağı "Naxçıvan" Universitetində "Türk-islam əxlaq fəlsəfəsinin qurucu memarları: Türküstandan Anadoluya irfan məktəbinin alimləri"nin II Beynəlxalq konfransını gerçəkləşdirir. Bu konfransın "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018"in bağlanış mərasimi ərəfəsində təşkil edilməsinin əhəmiyyəti çox böyükdür. Çünki qədim tarixi və mədəniyyəti olan diyarımız İslam aləmi və Türk dünyasında böyük bir mövqeyə malik olmaqla, özündə türk-islam mədəniyyətinin zənginliklərini birləşdirir. Qabaqcıl şəxsiyyətlər yetişdirən bu müqəddəs məkan, əminəm ki, gələcəkdə də türk-islam mədəniyyəti sahəsində əməkdaşlığın artırılmasında mühüm rol oynayacaq. Biz gələcəyimizi birlikdə inşa etmək istəyiriksə, keçmişimizdən güc almalıyıq, türk-islam mədəniyyəti üçün vacib əsərlər qoyub gedən qabaqcıl şəxsiyyətlərin, irfan məktəbi alimlərinin əsərləri ilə yaxından tanış olmalıyıq. Xüsusilə də gələcəyimiz olan gənclərin bütün bunlardan xəbərdar olması çox vacibdir. Bu baxımdan bugünkü konfransın çox böyük faydası olacaq.

İnanıram ki, TÜRKSOY-un rəhbərliyi altında irfan məktəbinə dair fikir mübadilələri bundan sonra da genişlənəcək, müsəlman ziyalılarından İsmayıl bəy Qaspıralının da ifadə etdiyi kimi: "Dildə, fikirdə, işdə bir" olmağımız üçün göstərilən səylərə kömək edəcəkdir. Türk dünyası olaraq bizim bundan sonrakı vəzifəmiz irfan məktəbinə sahib çıxmaq, mədəniyyət dəyərlərimizi qoruyub saxlamaq və ən əsası gələcəkdə də bu məktəbin davamçılarını yetişdirməkdir.

***Kojogeldi Kuluyev – TÜRKSOY-un Qırğızıstan təmsilçisi:*** – Naxçıvana ilk dəfədir, gəlirəm. Bu şəhər çox xoşuma gəldi, təmizliyi və gözəlliyi ilk tanışlıqda məni valeh etdi. Həqiqətən, Naxçıvan tarixi, mədəniyyəti ilə Türk dünyasında önəmli yerə malikdir. Biz burada "Türk-islam əxlaq fəlsəfəsinin qurucu memarları: Türküstandan Anadoluya irfan məktəbinin alimləri" mövzusunda keçirilən beynəlxalq konfransda iştirak etdik. Konfransda Naxçıvandan, Türkiyədən və digər türk dövlətlərindən elm adamlarının maraqlı çıxışları oldu. Mən isə "Türk dünyası ədəbiyyatında Çingiz Aytmatovun imzası" mövzusunda çıxış etdim. Düşünürəm ki, bu konfrans hamı üçün maraqlı və faydalı oldu. Digər tərəfdən Naxçıvan şəhəri bu il İslam Mədəniyyətinin Paytaxtı statusunu daşıyır. Bununla bağlı da möhtəşəm bir tədbir keçirildi. Bu tədbirlərin hər ikisi bir daha Naxçıvanın Türk və İslam dünyasındakı mövqeyini göstərir.



Naxçıvanın tarixi zənginliyi belə deməyə əsas verir ki, gələcəkdə bu qədim şəhər Türk dünyasının da mədəniyyət paytaxtı ola bilər və sözün həqiqi mənasında, buna layiqdir. Ümumi qənaətim isə belədir ki, Naxçıvan bizim hər birimiz üçün doğma məkandır.

***Oğuzxan Aydın – Ankara Yıldırım Bəyazit Universiteti, doktor:*** – Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı olması çox böyük hadisədir. Bu münasibətlə Türkiyə Cümhuriyyətinin bir təmsilçisi kimi Şərqin qapısı Naxçıvanda olmaqdan çox böyük qürur duyuram. Çünki duyğuları, düşüncələri, adətləri eyni olan iki xalqın nümayəndələri arasında bundan gözəl hiss ola bilməz.



Naxçıvan İSESCO-nun bu böyük layihəsinin təsadüfən paytaxtı seçilməyib. Hər şeydən əvvəl, Naxçıvan dünyanın bəzəyi, Türk dünyasının döyünən qəlbidir. Bura Nuh yurdu, müqəddəs məkandır. Konfransdakı çıxışlarımız, keçirdiyimiz görüşlər və tanış olduğumuz tarixi zənginliklər İslam Mədəniyyətinin Paytaxtı olan Naxçıvan haqqında zəngin təəssüratlarımızın yaranmasına səbəb oldu. Düşünürəm ki, bu gün buradakı bütün qonaqlar Naxçıvanı yenidən kəşf etdilər.

***Askar Turganbayev – TÜRKSOY-un Qazaxıstan təmsilçisi:*** – Hər şeydən əvvəl qeyd etmək istəyirəm ki, Azərbaycanın qədim diyarı Naxçıvanda Türk və İslam dünyası üçün böyük əhəmiyyət kəsb edən tədbirlərdə iştirak etmək bizim üçün çox qürurvericidir. Çünki Naxçıvanın həm Türk dünyasında, həm də İslam dünyasında böyük yeri var. Beş min il bundan əvvəl burada şəhər mədəniyyətinin formalaşması, sonrakı dövrlərdə elm, ticarət və mədəniyyətin inkişaf etməsi, Böyük İpək Yolunun üzərində yerləşməsi Naxçıvanın Şərqlə Qərb arasındakı rolunu daha da gücləndirib.



Naxçıvan tarixin bütün dövrlərində Türk dünyasına, ümumilikdə isə bəşər tarixinə böyük töhfələr verib, görkəmli şəxsiyyətlər bəxş edib. İslamın yayılmasından sonrakı dövrdə isə Naxçıvan İslam mədəniyyətinin inkişafında böyük rol oynayıb. Bu gün Naxçıvandakı türk-islam abidələri bu zəngin tarixi keçmişi bir daha göstərir. Konfransda da bu qədim diyarın zəngin tarixi, mədəni irsi haqqında maraqlı fikirlər söylənildi. Hesab edirəm ki, bu kimi tədbirlərin keçirilməsi Naxçıvanın Türk dünyasına yaxından tanıdılmasında əhəmiyyətli rol oynayır.

Digər tərəfdən mən şəhərlə bağlı qənaətlərimi bölüşmək istəyirəm. Səfər müddətində biz Naxçıvan şəhərini də gəzdik, buradakı tarixi abidələrlə, muzeylərlə tanış olduq. Şəhər çox təmiz və gözəldir. Həyat burada sakitcə öz axarında davam edir. Şəhərin simasında qədimlik və müasirlik ahəngdarlıq təşkil edir. Arxitektura cəhətdən çox nizamlıdır. Hiss olunur ki, Naxçıvanda tarixə böyük sevgi ilə yanaşılır, müasirlik elementlərindən qədərində istifadə olunur. Ümumiyyətlə, Naxçıvanın müasir siması, həyat tərzi yaddaşımızdan uzun müddət silinməyəcək.

**Rauf KƏNGƏRLİ**
**Səbuhi HƏSƏNOV**
**Əli CABBAROV**
**Güntac ŞAHMƏMMƏDLİ**


**ŞƏRQ qapısı**
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 912